# PEDAQOGİKANIN AYRI-AYRI ELMLƏRLƏ QARŞILIQLI ƏLAQƏSİ



**Akif Abbasov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim*
*e-mail: prof.akif@mail.ru*

**UOT:** 37

**Xülasə**. *Bütün elmlər kimi pedaqogika da başqa elmlərlə qarşılıqlı əlaqədədir. Pedaqogika daha çox fəlsəfə, psixologiya, sosiologiya, məntiq, fiziologiya, tibb və digər elmlərlə bilavasitə bağlıdır. Pedaqogika həm həmin elmlərdən faydalanır, həm də həmin elmlərə zəruri materiallar verir. Bu qarşılıqlı əlaqələr də uşaqların, şagirdlərin bir şəxsiyyət kimi formalaşmasına, tərbiyə almasına, təhsillənməsinə öz köməyini göstərir.*

***Açar sözlər:*** *pedaqogika, pedaqogikanın başqa elmlərlə əlaqəsi, pedaqogikanın psixologiya ilə əlaqəsi, pedaqogikanın fəlsəfə ilə əlaqəsi, pedaqogikanın etika ilə əlaqəsi.*
***Key words:*** *pedagogy, connection of pedagogy with other sciences, connection of pedagogy with psychology, connection of pedagogy with philosophy, connection of pedagogy with ethics.*
***Ключевые слова:*** *педагогика, связь педагогики с другими науками, связь педагогики с психологией, связь педагогики с философией, связь педагогики с этикой.*

İnsan bir sıra elmlərin, o cümlədən fəlsəfənin, sosiologiyanın, tibbin, psixologiyanın və s. tədqiqat obyektidir. Pedaqogikanın da obyekti dünyanın əşrəfi olan insandır. Tərbiyə və öyrətmə fəaliyyətinin obyekti böyüyən və inkişaf edən şəxsiyyət olduğu üçün pedaqogika elmi, şübhəsiz, ilk növbədə insanı öyrənən elmlərlə qarşılıqlı əlaqədə olmalıdır.

İnsan problemi ilə ictimai elmlər məşğul olur. İnsan bioloji təkamül məhsulu və canlı orqanizm kimi anatomiyanın, fiziologiya, biologiya və təbabətin, öz psixi daxili aləmi ilə düşünən varlıq kimi psixologiyanın öyrənmə obyektidir. İnsanın şüurunu psixologiya və kibernetika, fəaliyyətini isə sosiologiya və tarix elmləri araşdırır.

Pedaqogika didaktik problemlərin hazırlanmasında idrak nəzəriyyəsinə, mənəvi tərbiyə məsələlərinin öyrənilməsində etikaya, estetik tərbiyənin bu və digər məsələlərinə aydınlıq gətirilməsində isə estetikaya istinad edir. İnsan bədəninin hüceyrələrində gedən prosesləri başa düşməkdən ötrü fizika və kimyaya bələd olmaq lazımdır.

İnsan canlı varlıqdır, təbiətin bir hissəsidir (Y.A.Komenski – təbiətəmüvafiqlik). Metodoloji və dünyagörüşü əsasında pedaqogika başqa elmlərlə – psixologiya, yaş psixologiyası, biologiya və s. ilə çoxşaxəli əlaqələr qurur. Şəxsiyyətin inkişaf qanunları və mövcudluğu ilə bağlı bioloji elmlərdən ətraflı məlumat toplamaq və təlim-tərbiyə prosesində faydalanmaq mümkündür. Pedaqogika bioloji amilə əsaslanır. Yaş anatomiyası, fiziologiyası, ali sinir fəaliyyəti, sinir

sisteminin tipoloji xüsusiyyətlərinə dair nəzəriyyələr imkan verir ki, pedaqogika təlim-tərbiyə prosesinin optimal və təkmil metodikasını hazırlaya bilsin və onun əsasında təhsilalanların fəaliyyəti üçün daha əlverişli şərait yaratsın.

Temperament tiplərini psixologiya elmi öyrənir, onun materiallarından pedaqogika istifadə edir. Eləcə də uşağın baş-beyin qabığında gedən prosesləri, yaşının üstünə yaş gəldikcə orqanizmində gedən dəyişiklikləri, onun çəkisini və s. insan anatomiyası və fiziologiyası elmi öyrənir. Müəllim həmin məsələlərlə yaxından tanış olub, uşaqlarla iş prosesində onları nəzərə alır. Təhsilalanların (kiçik, orta və böyük məktəbyaşlı uşaq və yeniyetmələrin) fərdi xüsusiyyətlərini və inkişafının qanunauyğunluqlarını bilmək – təlim və tərbiyənin daha səmərəli məzmunu və metodlarını müəyyənləşdirməyə və əsaslandırmağa, şəxsiyyətin formalaşdırılması prosesini düzgün layihələndirməyə köməklik göstərir. Didaktika bu bilik və məlumatlara əsaslanır. Qeyd olunanlar müvafiq yaş dövrü üçün təlim yükünün düzgün bölüşdürülməsinə, məzmunun, vasitələrin, metodların seçilməsinə imkan və şərait yaradır.

Pedaqogikanın müstəqil elm olaraq formalaşdırılması fəlsəfə, humanitar və təbiət elmləri ilə əlaqədardır. Odur ki, bu elmlər pedaqoji kadr hazırlayan məktəblərin tədris planlarına salınır. Hazırda pedaqogikanın ayrı-ayrı elmlərlə qarşılıqlı əlaqə imkanları xeyli genişləndirilmişdir. Pedaqogika pedaqoji gerçəkliyin nəzəri və praktiki məsələlərini araşdırarkən, eyni zamanda şəxsiyyət probleminin tədqiqi ilə məşğul olan başqa elmlərin uğurlarından, materiallarından bəhrələnir. Pedaqogika, məhz bu uğurlardan faydalanmaqla inkişaf edir. Elmin tarixinə nəzər salsaq görərik ki, pedaqoji fikir ümumfəlsəfi biliklərə əsaslanmaqla təşəkkül tapmışdır. Təhsil, təlim-tərbiyəyə dair ideyalar dövlət haqqında qanunlar külliyyatında, dini ehkamlarda, ədəbi əsərlərdə öz əksini tapmışdır. Pedaqogika elminin tədqiqat metodları da, ilk növbədə bu prosesdə formalaşmışdır.

Elmi biliklərin dərinləşməsi və genişləndirilməsi elmlərin diferensiasiyası ilə nəticələnmiş, pedaqogika da müstəqil elm sahəsi olmuşdur. Sonradan elmdaxili diferensiasiya baş verdi, bir sıra müstəqil pedaqoji elmlər təşəkkül tapdı və onların sistemi bərqərar oldu. Elmşünaslığın qənaətlərinə görə, elmarası sintez (tərkib) yarandı. İnsana və təbiətə dair elmin inkişafının ümumi ənənələri, məhz belə səciyyələndirilə bilər. Elm vahiddir, onun sahələrə bölünməsi şərti xarakter daşıyır, gerçəkliyin daha əhatəli öyrənilməsinə şərait yaradır. Hazırda elmin diferensiasiyası (ayrı-ayrı sahələrə bölünməsi) və inteqrasiyası (bir araya gətirilməsi, qovuşması) dialektik vəhdətdə özünü büruzə verir. Elmlərin qarşılıqlı əlaqədə fəaliyyət göstərməsi, onların inkişafına kömək göstərir. Odur ki, heç bir elm öz hüdudunda qapanıb qalmır, başqa elmlərlə qaynayıb-qarışır, bu və ya digər elmin materiallarından qidalanır, yaxud həmin elmə material verir. Bu baxımdan, pedaqogika da çox elmlərlə qarşılıqlı əlaqədədir.

Pedaqogika öz sisteminə daxil olan elmlərlə yanaşı, başqa elmlərlə də sıx surətdə bağlıdır. Həmin əlaqə təsadüfi xarakterdə deyildir. Ona görə də, əvvəla, pedaqogikanın tədqiqat obyektlərindən biri sayılan tərbiyə ilə, eyni zamanda fəlsəfə, etika, estetika, psixologiya və s. kimi ictimai elmlər də məşğul olur. Pedaqogika öz inkişafı naminə bu elmlərin əldə etdiyi nəticələrdən də faydalanmalıdır. İkincisi, pedaqogika təhsilin məzmunu və ayrı-ayrı fənlərin tədrisi metodikası ilə bağlı olan bir sıra məsələləri lazımi səviyyədə, dövrün tələblərinə uyğun şəkildə müəyyənləşdirmək məqsədi ilə elmi və texniki biliklərin müxtəlif sahələri ilə münasibətdə olmalıdır. Əks təqdirdə, o elm və texnikanın inkişafı ilə bağlı olan yeni bilikləri tədris proqramlarına, dərsliklərə və təhsilin məzmununa daxil edə bilməz. Bu isə təlim-tərbiyə sahəsində geridə qalmaya, məktəbin həyatla əlaqəsinin zəifləməsinə səbəb ola bilər. Deməli, pedaqogikanın başqa elmlərlə əlaqəsi təbii və qanunidir. Lakin hər halda bu əlaqə və bağlılıq elmlərin hamısı arasında eyni dərəcədə deyildir. Məktəb təcrübəsinin öyrənilməsindən görünür ki, pedaqogika bir çox elmlərlə, o cümlədən fəlsəfə, psixologiya, insan anatomiyası və fiziologiyası, erqonomika, məktəb gigiyenası, fiziologiya, etika, tibb və s. ilə əlaqədardır. Onları nəzərdən keçirək:

***Fəlsəfə və pedaqogika.*** Fəlsəfə təbiət, cəmiyyət, təfəkkürün ən ümumi inkişaf qanunlarını müəyyənləşdirdiyi üçün onun ideyaları hər bir

sahədə, o cümlədən pedaqoji gerçəklikdə özünü göstərir. Belə ki, fəlsəfə sübuta yetirmişdir ki, inkişaf cisim və hadisələrin daxili və xarici ziddiyyətlərinə əsasən gedir. Bu kimi ziddiyyətlər mövcud deyilsə, inkişafdan söhbət belə gedə bilməz.

*"Fəlsəfə"* yunan sözü olub, *"müdrikliyə məhəbbət"* deməkdir. Bu anlayışdan görünür ki, bir zamanlar dünya və insan haqqında bütün biliklərin məcmusu fəlsəfədə öz əksini tapırdı. Məlumdur ki, şəxsiyyətin inkişafında fəaliyyətin roluna dair, insan şüurunun formalaşmasına, varlığın və sosial şəraitin təsirinə dair zəngin fəlsəfi fikirlər mövcuddur. Tərbiyənin mahiyyəti aydınlaşdırılarkən həmin fikirlər yada salınır. Bu baxımdan, qədim yunan filosoflarının şəxsiyyətin tərbiyəsinə aid qiymətli fikirlərini qeyd edə bilərik. Qədim Çin filosofu Konfutsinin (b.e.ə. 551-479) fikrincə, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq, hər bir kəs elə davranmalıdır ki, onun hərəkətləri və vəzifəsi arasında ziddiyyət əmələ gəlməsin. İnsanlar qarşılıqlı rəhmdillik göstərməli, ata-babalarının bu istiqamətdəki ənənələrini yaşatmalıdırlar. Platon tərbiyənin dövlət tərəfindən təşkil olunmasını məqsədəuyğun hesab edirdi. Aristotel də tərbiyə ilə dövlətin məşğul olmasını vacib bilir, tərbiyəni dövlətin möhkəmləndirilməsi üçün mühüm vasitə sayırdı.

Çox-çox sonralar biliklərin əhatə dairəsinin genişləndirilməsi, xüsusi tədqiqat metodlarının müəyyənləşdirilməsi sayəsində bəşəriyyətin vahid elmi olan fəlsəfə bir çox sahələrə ayrılır. Başqa elmlərlə müqayisədə fəlsəfə onların ümumi metodologiyası rolunu oynayır. Fəlsəfə ilə əlaqə pedaqoji elmlərin inkişafına köməklik göstərir. Fəlsəfədə tərbiyə haqqında elm, ilk növbədə dayaq metodoloji müddəalarla zənginləşir. Buraya – zərurət və təsadüf, ümumi, tək və xüsusi, qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq qanunu, inkişaf və onun hərəkətverici qüvvələri qanunu, pedaqoji hadisələrin subyektiv və obyektiv determinizmi və s. daxildir. Fəlsəfə və pedaqogikanın əlaqəsi tədqiqatçılıq təfəkkürünün, dialektikanın və idrak nəzəriyyəsinin (qnoseologiyanın) inkişafına imkan verir.

Pedaqoji prosesin əsas məramı müəllimin rəhbərliyi altında məktəblilərin öz imkanlarını, bacarıq və qabiliyyətlərini inkişaf etdirmək qayğısına qalmalarından, cəmiyyətimizə layiq vətəndaşlar kimi yetişmələrindən ibarətdir. Məqsəd məktəblinin inkişafını təmin etməyə yönəldiyindən şəxsiyyəti inkişaf etdirən dialektik ziddiyyətlər müəyyənləşdirilməli və nəzərə alın-malıdır. Pedaqogikanın və fəlsəfənin bir sıra ümumi məsələləri və problemləri vardır: şəxsiyyətin tərbiyə olunması, dünyagörüşünün formalaşdırılması, kollektiv və şəxsiyyətin qarşılıqlı əlaqəsi, idrak nəzəriyyəsinin və insanın ətraf gerçəkliyi dərketmə formalarından biri kimi şagird idrakının hazırlanması ilə əlaqədar olan qnoseoloji problemlər və s.

Fəlsəfənin ziddiyyətlərə dair müddəalarına bələd olmadan məktəbli şəxsiyyətinin formalaşmasına şərait yaradan əskiklikləri müəyyənləşdirmək asan deyildir. Lakin pedaqogika heç də yalnız fəlsəfənin ziddiyyətlərə dair ideyalarını mexaniki şəkildə pedaqoji prosesə tətbiq etməməli, pedaqoji gerçəklikdəki səciyyəvi ziddiyyətləri aşkara çıxarmalıdır. Həmin ziddiyyətlər fəlsəfənin müəyyənləşdirdiyi ziddiyyətlərin inkarına yönəldilməməli, ona uyğun olmalı və onu tamamlamalıdır. Həm də pedaqogika fəlsəfənin ümumi müddəalarına istinad edərək, pedaqoji gerçəkliyin qanunlarını, prinsip və metodlarını konkretləşdirir. Şagirdlərin (tələbələrin) dünyagörüşünü genişləndirmək təhsilin əsas vəzifələrindən biridir. Ona görə pedaqoji kollektiv üzvlərinin apardıqları məqsədyönlü, sistemli və fasiləsiz iş, həm də ona yönəldilməlidir ki, məktəblilər aydın başa düşsünlər: varlıq birinci, şüur ikincidir; maddi aləmi dərk etmək olar; Yer kürə şəklindədir; kainat maddidir; Yer üzündə hər bir şey qarşılıqlı əlaqədədir; yeniliyin qarşısı alınmazdır və s. Bütün bunların aşılanmasına fəlsəfə düzgün istiqamət verir. O pedaqogika elminin metodoloji əsasını müəyyənləşdirir.

Pedaqogika sosial mühitin insana, onun cəmiyyətdəki mövqeyinə təsirini tədqiq edən ***sosiologiya*** ilə də sıx əlaqədədir. İctimai mühit, insanlar arasındakı ictimai münasibətlər şəxsiyyətin sosial baxımdan inkişafına şərait yaradır. Şəxsiyyətə mühitin təsiri, mühitdə əlverişli mənəvi-psixoloji atmosferin bərqərar olması, insanlar arasındakı qarşılıqlı münasibətlərin xarakteri ilə tanışlıq sosiologiya elminin vəzifələrinə aiddir. Oğlan və qızlar məktəbə gələrkən mühitin

ona göstərdiyi təsirin izlərini də özləri ilə gətirirlər. Müəllimin pedaqoji təsiri ilə mühitin təsiri bir sıra hallarda bir-birinə uyğun gəlmir. Müəllim və sosioloqun bundan xəbəri olmalıdır. Odur ki, pedaqogika ilə sosiologiya arasındakı qarşılıqlı əlaqəyə həmişə fikir verilməlidir.

Pedaqogika ilə sosiologiya arasında qırılmaz əlaqələr mövcuddur. Hazırda pedaqogikanın xüsusi sahəsi – sosial pedaqogika fəaliyyətdədir. Pedaqogikanın bu sahəsi pedaqogika və sosiologiyanın qovşağından yaranıb. Pedaqogika və sosiologiya cəmiyyətin sosial strukturundakı dəyişiklikləri, insanların peşə məşğuliyyəti prosesləri haqqında sosioloji tədqiqatların ümumi məlumatlarını və nəticələrini məktəb, ailə və ictimaiyyətin birgə həll etməli olduğu təlim və tərbiyənin konkret vəzifələrinə köçürülməsini həyata keçirir. Ali məktəblərdə sosial pedaqogika ixtisası üzrə mütəxəssis hazırlanması da nəzərdə tutulur. Bu, ona doğru istiqamətlənir ki, həmin fakültəni bitirənlər məktəbdənkənar müəssisələrdə ixtisaslı mütəxəssis kimi uğurla çalışa bilsinlər.

Pedaqogikanın ***fiziologiya*** ilə əlaqəsi də sıxdır. Şərti reflektorlu fəaliyyətin fizioloji nəzəriyyəsi tərbiyə olunanlarda praktiki bacarıqların, vərdişlərin və müsbət davranış təcrübəsinin formalaşmasının elmi əsaslarını, həmçinin idrak qabiliyyətlərinin və yaradıcı təfəkkürün inkişafını aydınlaşdırmağa köməklik göstərir.

*Fiziologiya* tam sistemin və onun ayrı-ayrı sahələrinin funksional sistemlərinin həyat fəaliyyəti haqqında elmdir. O uşağın maddi-enerji inkişafının mənzərəsinə aydınlıq gətirir. Şagirdin fiziki və psixi inkişafının idarəolunması mexanizmini anlamaqdan ötrü ali sinir sisteminin fəaliyyətinin qanunauyğunluqlarına bələd olmaq lazımdır. Hər hansı yaş dövründən olan şagird öz inkişafının fizioloji proseslərini bilməlidir. Fiziologiya mühitin, metodikaların, tərbiyəvi təsirlərin sirlərinə dərindən nüfuz etməkdə, pedaqoji əməyin təşkilində, yüklənmənin müəyyənləşdirilməsində və qarşısının alınmasında məktəblilərə və öz-özünə tələblər verməsində müəllimə köməklik göstərir. Bir çox hallarda məktəblilər oxşar anlayışları heç də asan qavramır, çox zaman onları qarışdırırlar. Bütün bunların fizioloji səbəbləri vardır. Xaricdən təsir göstərən hər hansı qıcıqlandırıcı baş-beyin qabığında özünə uyğun bir mərkəzi oyadır. Nəticədə insan bu qıcıqlandırıcı barədə müəyyən təsəvvürə yiyələnir. Oxşar qıcıqlandırıcılar isə iki mərkəzin deyil, bir mərkəzin hərəkətə gəlməsinə şərait yaradır və beləliklə, onlar bir-birindən çətin fərqləndirilir. Fiziologiya belə şəraitlərdə nə etməyin lazım olduğunu öyrədir. O oxşar qıcıqlandırıcıların elə fərqli əlamətlərini taparaq məktəbliyə aydınlaşdırmalıdır ki, nəticədə bir deyil, iki mərkəz oyansın.

***Yaş fiziologiyası*** müxtəlif yaş dövrlərində fizioloji proseslərin qanunauyğunluqlarını müəyyənləşdirir ki, onlar təlim-tərbiyə prosesində hesaba alınmalıdır. Burada dinamik stereotipin, adətlərin və vərdişlərin, şəxsiyyətin xassələrinin formalaşmasındakı rolu, müxtəlif yaş mərhələlərində anatomik-fizioloji dəyişikliklərin psixi inkişafı və şəxsiyyətin inkişafına təsiri, ali sinir fəaliyyətinin tipləri, onların tərbiyə prosesində təzahürü və şəxsiyyətin xassələrinin formalaşmasına göstərdiyi təsir, məktəblilərin fərdi fizioloji fərqləri və təlim prosesində onların əhəmiyyəti, sinir sistemi xassələrini işgüzarlığa, onun tempinə təsiri və s. məsələlərə aydınlıq gətirilir ki, bütün bunların hər biri ilə tanışlıq ailədə və məktəbdə böyüyən nəsil arasında təlim-tərbiyə işlərini səmərəli şəkildə qurmağa imkan verir.

***İnsan anatomiyası və fiziologiyası ilə əlaqə.*** Pedaqogika müxtəlif yaş dövrlərində uşağın bədəninin, ayrı-ayrı üzvlərinin quruluşu və inkişaf xüsusiyyətlərinə dair zəruri məlumatları insan anatomiyası və fiziologiyasından alır. Pedaqogika həmin məlumatlara istinadən təhsilalanları fiziki cəhətdən normal inkişaf etdirməyin üsullarına dair müəllim və tərbiyəçilərdə, həm də valideynlərdə aydın təsəvvür formalaşdırır. İ.P.Pavlovun ali sinir fəaliyyəti ilə bağlı nəzəriyyəsinin pedaqogika üçün əhəmiyyəti böyükdür. Bu nəzəriyyə pedaqoji prosesin bir çox məsələlərinin fizioloji mahiyyətini açır. Belə ki, birinci və ikinci siqnal sistemlərinin qarşılıqlı əlaqəsinə dair təlim-biliklərə yiyələnmə prosesini, təsəvvür və anlayışların meydana çıxma səbəblərini və imkanlarını fizioloji baxımdan şərh edir. Bundan başqa, dinamik stereotipə aid Pavlov təlimi tərbiyədə rejimin rolunu və əhəmiyyətini əsaslandırır, vərdişlərin fizioloji me-

xanizmi barədə aydın təsəvvür yaradır.

Pedaqogika, eyni zamanda ***genetika*** ilə qarşılıqlı əlaqədədir. Müəllim şagirdin irsən qazandığı əlamətlərə bələd olmalı və öz fəaliyyətində onları diqqət mərkəzində saxlamalıdır. Şagirdlərlə ailə həyatına hazırlıq üzrə iş aparan müəllim oğlanla qıza hansı məsləhətləri verə bilər? O, dominant əlamətləri yaxşı bildikdə, onlara gələcəkdə ailədə qüsurlu uşağın olmamasına aid tövsiyələr verə bilər.

Pedaqogikanın, həm də ***erqonomika*** ilə əlaqəsi vardır. Bəzən yaxşı oxuyan, təlimə məsuliyyətlə yanaşan, nümunəvi davranış və rəftara malik məktəbli birdən-birə dəyişir, özünü qəribə aparır, pedaqoji təsirlərə biganə qalır, müəllimini, valideynini eşitmir, intizamı pozur və s. Həmin şagirdə həm valideynləri, həm də müəllimləri tərəfindən irad tutulur. Şagird də özü-özünə təəccüblənir: "Nə baş verir?" Bunun səbəbini heç o özü də bilmir. Yeri gəlmişkən, bu kimi hallar yalnız uşaq və yeniyetmələrdə deyil, yaşlıların özlərində də baş verir. Bir də görürsən ki, nəyisə hara isə qoyuruq, az, yaxud çox vaxt keçməsinə baxmayaraq, onu unudur, axtarışına xeyli vaxt sərf edirik. Bəzən də ümumiyyətlə, tapa bilmir, yaxud tapmaqda kimsə bizə kömək göstərir və ya bir müddət sonra təsadüfən qarşımıza çıxır. Bəzən istəmədən kiminsə xətrinə dəyir, yaxud elə hərəkətə yol veririk ki, sonradan xəcalətini çəkirik. Qəflətən əlimizdən nəyi isə yerə salıb sındırdığımız vaxtlar da olur. Deməli, həyatda elə məqamlar vardır ki, insanın hər hansı hərəkəti şüurun nəzarətindən kənara çıxır, elə bil ani olaraq hafizə fəaliyyətdən qalır. Bu, nə ilə bağlıdır? Həmin anlarda nöqsana yol verən insanın hərəkət və əməlləri necə qiymətləndirilməlidir? Belə suallara cavab tapmaq üçün erqonomikanın imkanlarından faydalanmalıyıq. Erqonomika elmlər kompleksindən ibarətdir. O pedaqogika və psixologiya, gigiyena, antropologiya, fiziologiya, sosiologiya və s. elm sahələrinin gəldiyi nəticələri ümumiləşdirərək onlardan faydalanır.

***Psixologiya*** (xüsusən, ümumi psixologiya, yaş və pedaqoji psixologiya) müxtəlif yaş dövrlərində uşaqların psixi fəaliyyətlərinin inkişaf qanunlarını öyrənir. Pedaqogika pedaqoji prosesi səmərəli şəkildə qurmaq üçün həmin qanunları əsas götürür. Psixologiyanın və məntiqin ideyaları məktəblilərin idraki fəaliyyətinin təşkili prinsiplərinin hazırlanmasına çox kömək edir. İnsanlar xarakterinə, davranış və rəftarına görə bir-birlərindən fərqlənirlər. Nə üçün? Bu sualı psixologiya və biologiya elmləri cavablandırır: bioloji və sosial amillər adamların əsas fərqli əlamətlərinin əmələ gəlməsinə imkan verir. Ayrı-ayrılıqda hər bir şəxsin həyat yolu təkrarolunmazdır. Məhz bu səbəbdən də insanlar eyni olmurlar. Bütün bunlara əsasən, pedaqogika müvafiq nəticəyə gəlir: məktəbli oğlan və qızların hər biri özünəməxsus fərdi xüsusiyyətlərə malikdir və pedaqoji prosesdə bu xüsusiyyətlər hökmən diqqət mərkəzinə gətirilməlidir.

Təlim-tərbiyə işində məktəblinin təfəkkürü, təxəyyülü, qabiliyyətləri, hafizəsi, yaddaşı, qavrayışı, müqayisə aparmaq, tutuşdurmaq, qruplaşdırmaq, ümumiləşdirmək, müvafiq nəticəyə gəlmək bacarıqlarının formalaşması qayğısına qalmaq lazımdır. Təfəkkür, təsəvvür və digər anlayışların xüsusiyyətlərinə yaxşı bələd olmaq sayəsində onları inkişaf etdirmək mümkündür. Təfəkkürün, təxəyyülün, qavrayışın, hafizənin nə demək olduğunu bilmək üçün psixologiyanı öyrənmək gərəkdir. Psixologiya ilə yaxından tanış olmaq məktəblilərin düzgün inkişafına, müəllim-şagird münasibətlərinin səmərəli qurulmasına kömək edir. Bildiyimiz kimi, psixologiya bir çox sahələrə bölünür: ***ümumi psixologiya, yaş psixologiyası, pedaqoji psixologiya, sosial psixologiya, tibbi psixologiya, hüquq psixologiyası*** və s.

Pedaqogika və psixologiya arasında çoxşaxəli əlaqələr mövcuddur. Bu əlaqələrdən ən əsası bu elmlərin predmetidir. Psixologiya insanın psixikasının inkişaf qanunauyğunluqlarını öyrənir, pedaqogika isə şəxsiyyətin inkişafının idarə olunması qanunlarına aydınlıq gətirir. Uşaqlar və böyüklər arasında tərbiyə işlərinin aparılması bu psixikanın (təfəkkür, fəaliyyət) məqsədyönlü dəyişilməsindən ibarətdir. Bu məsələ yalnız psixoloji biliklərə yiyələnməklə mütəxəssislər tərəfindən həyata keçirilə bilər. Pedaqogika və psixologiyanın ikinci əsas əlaqəsi – şəxsiyyətin təhsillilik və tərbiyəlilik göstəriciləri və meyarları ilə bağlıdır.

Pedaqogika daha çox ümumi psixologiya, yaş

və pedaqoji psixologiya, sosial psixologiya ilə sıx surətdə bağlıdır. Yaş psixologiyası şəxsiyyəti yaş dinamikası və inkişafyönündə, pedaqoji psixologiya isə şəxsiyyəti insanın inkişafında təlim və tərbiyənin rolu baxımından araşdırır. Yalnız müxtəlif yaş dövrlərinin psixoloji xüsusiyyətlərini, bu və ya digər yaş dövrlərində psixi inkişafın qanunlarını və qanunauyğunluqlarını diqqət mərkəzinə gətirməklə pedaqoji prosesin səmərəli qurulacağına dair nikbin fikir yürütmək mümkündür.

***Yaş psixologiyası*** davranış, ünsiyyət və təlim məsələləri, çağa və körpələrin, məktəbəqədər, kiçik məktəbyaşlı uşaqların, yeniyetmə və gənclərin psixi inkişaf xüsusiyyətləri və bu axarda şəxsiyyətin formalaşması məsələlərini nəzərdən keçirir. Pedaqogika təlim-tərbiyə prosesini səmərəli qurmaq üçün yaş psixologiyasının hazırladığı həmin materiallardan faydalanır.

***Pedaqoji psixologiya*** bilavasitə təlim, tərbiyə və təhsil məsələləri ilə məşğul olur və özü də qollara ayrılır: tərbiyə və özünütərbiyə psixologiyası, təlim psixologiyası, təhsil psixologiyası, pedaqoji fəaliyyət və müəllim şəxsiyyəti psixologiyası, anomal uşaqlarla təlim-tərbiyə psixologiyası və s. Pedaqoji psixologiyanı ümumi psixologiya ilə pedaqogikanın hüdudlarında dayanan bir sahə kimi nəzərdən keçirtmək mümkündür. Təlim-tərbiyənin nəzəriyyəsini bilmədən pedaqoji psixologiya öz predmetini müəyyənləşdirməkdə çətinliklərlə üzləşərdi. Öz əhəmiyyəti baxımından pedaqogikanın psixologiya elmi (xüsusən də pedaqoji psixologiya) ilə əlaqəsi başqa elmlərlə müqayisədə öncül yerlərdən birini tutur. Bu da səbəbsiz deyildir. İstər pedaqogika, istərsə də pedaqoji psixologiya uşaq, yeniyetmə və gənclərin təlim-tərbiyəsini müxtəlif yönlərdən öyrənir.

***Sosial psixologiya*** psixologiya elminin qrup və kollektivlərdə, müxtəlif mütəşəkkil və qeyri-mütəşəkkil insan birliklərində insanlar arasındakı qarşılıqlı fəaliyyətin gedişində meydana gələn psixi hadisələri öyrənən perspektiv bir sahəsidir ki, pedaqogika onun nailiyyətlərindən və hazırladığı materiallardan gen-bol istifadə edir. Adından göründüyü kimi, sosial psixologiya psixologiya və sosiologiyanın qovşağında yaranmışdır və günü-gündən inkişafdadır.

***Etika ilə əlaqə.*** Məlum olduğu kimi, etika (yunanca, "ethos" sözündən olub, dilimizə tərcümədə "adət, xasiyyət, xarakter, davranış" deməkdir) əxlaq və mənəviyyat haqqında təlimdir. Etika ictimai şüurun çox qədim formalarından biri olan əxlaqı öyrənir. Etika bir tərəfdən adamların davranış qaydalarını və əxlaq normalarını nizamlamaq, digər tərəfdən mənəviyyat nəzəriyyəsini araşdıran mənəvi prinsiplər barədə təlim mənasını verir. Pedaqogika əxlaq tərbiyəsinin nəzəriyyəsini hazırlayarkən əxlaqın təşəkkülünə dair etikanın müddəalarını əsas götürür, mənəvi tərbiyə prosesi aydınlaşdırılarkən etikanın müddəalarına istinad edir.

***Məktəb gigiyenası ilə əlaqə.*** Məktəb gigiyenası xarici mühit amillərinin (fiziki, kimyəvi, bioloji və ictimai) təhsilalanların orqanizmlərinə və onların səhhətinə təsiri məsələlərini nəzərdən keçirir. Bu elmin inkişafı fiziologiya və pedaqogika elmlərinin inkişafı ilə son dərəcə sıx şəkildə bağlıdır. Bu elmin pedaqogika ilə əlaqəsini, həm də məktəb gigiyenasının qarşısında duran məqsəddə görmək olar:

1. xarici mühit amillərinin uşaq orqanizminə mənfi təsirini azaltmaq və zəiflətmək; 2. təhsilalanların bədəninin möhkəmlənməsinə, xəstəliklərə qarşı müqavimətinin yaradılmasına və artırılmasına, uşaqların iş qabiliyyətinin yüksəldilməsinə təsir göstərən təbii və süni amillərlə tanış olmaq və onların tətbiqinə nail olmaq. Məktəb gigiyenası xarici mühit amillərinin uşaq orqanizminə təsirini aradan qaldırmaq üçün tədbirlər və normativlər işləyib hazırlayır. Məktəb gigiyenası təlim prosesi ilə bağlı məktəblilərin fiziki inkişafının qanunauyğunluqlarını, məktəb binasına, avadanlığına və təlim əməyinə verilən səhiyyə tələblərini, idman və bədən tərbiyəsinin səviyyəsini səmərəli qurmaqda pedagogikanın köməyinə yetir.

Nüfuzlu, sayılıb-seçilən həm cəmiyyət üzvləri, həm valideynlər və şagirdlər, həm də pedaqoji kollektiv üzvlərinin sevimlisinə çevrilmək və ölkəmiz üçün ləyaqətli vətəndaşlar yetişdirmək istəyən hər bir müəllim və hər bir valideyn müxtəlif elmlərə də dərindən bələd olmalıdır. İnsana aid müxtəlif elmlərin ideyaları şəxsiyyətin inkişafının mahiyyətini və qanunauyğunluqlarını tədqiq etməyə imkan verir. Pe-

daqogika digər elmlərin tədqiqat metodlarından yaradıcı şəkildə faydalanmaqla təşəkkül tapır. Pedaqogikada eksperimental tədqiqat metodlarının genişləndirilməsinə psixologiya, sosiologiya, insanın fiziologiyası və s. elmlər köməklik göstərir. Məsələn, riyaziyyat təcrübi-eksperimental materialın statistik metodlarla işlənilib hazırlanması sahəsində pedaqogikaya yardımçı olur.

K.D.Uşinski "İnsan tərbiyənin predmeti kimi" əsərində yazırdı: "Əgər pedaqogika insanı hər cəhətdən tərbiyə etmək istəyirsə, o əvvəlcə insanı hər cəhətdən də öyrənməlidir". İnsanşünaslığın müasir elmin əsas problemi olduğu bir vaxtda pedaqogikada təhsilə və tərbiyəyə dair ayrı-ayrı elmlərin ideyalarına müraciət etmək zərurətə çevrilir.

Pedaqogikanın ***iqtisadiyyatla***, o cümlədən ***təhsil iqtisadiyyatı*** ilə əlaqəsi vardır. Ümumi təhsilin yüksək səviyyəsi istehsalat əməyinin səmərəliliyinin artırılmasına imkan verir. Təhsil iqtisadiyyatının məlumatları uşaqların icbari təliminin başlanğıc dövrünün, beş yaşında təlimə keçidlə bağlı sərf olunacaq məbləğin həcminin, məktəbin quruluşunun müəyyənləşdirilməsi və siniflərin səmərəli yerləşdirilməsi, şagirdlərin optimal komplektləşdirilməsi, məktəblilər tərəfindən dərsliklərdən pulsuz istifadənin dəyərinin aşkara çıxarılması, pedaqoji kadrlara, məktəb binalarının tikintisi, təmir (o cümlədən əsaslı təmir) işlərinin aparılması və s. kimi pedaqoji vəzifələri həll etmək üçün lazımdır. Bu problemlərin həllində pedaqogika və iqtisadiyyat əhali problemini tədqiq edən demoqrafiyanın məlumatlarından faydalanır. Həmin məlumatlara daxildir: doğum, ölüm, miqrasiya və s. Doğumu, əhalinin yaş strukturunu və yerləşdirilməsi proseslərini hesaba almaq və proqnozlaşdırmaqla tədris müəssisələrinin inşası, tələb olunan sayda və ixtisaslar üzrə pedaqoji kadrların hazırlanması məsələləri yoluna qoyulur.

Pedaqogikanın sıx və qarşılıqlı əlaqədə olduğu elmlərdən biri də mürəkkəb dinamik sistemlərin idarə edilməsi ilə məşğul olan ***kibernetikadır.*** Kibernetikanın ümumi ideyalarının pedaqogikaya tətbiqinin praktiki nəticələri sırasında proqramlaşdırılmış təlim özünəməxsus yer tutur.

Pedaqogika ***tibb*** elmi ilə də sıx surətdə bağlıdır. Fiziki inkişaf problemlərinin, uşaq orqanizminin iş qabiliyyətinin yüksəldilməsi, onun fəaliyyətinin normallaşdırılması problemlərinin öyrənilməsi zamanı pedaqogika tibbi elmlərin zəruri məlumatlarını əsas götürür. Pedaqogikanın tibb elmi ilə əlaqəsi, təkcə onun "uşaq xəstəlikləri" sahəsi ilə əlaqədar deyil. Əsəb pozğunluğu, yoluxucu xəstəliklər, toksikomaniya, narkomaniya məktəbyaşlı uşaqları sarsıdan xəstəliklər olub, pedaqoji elmlər qarşısında qlobal vəzifələr qoyur. Bu sahədə müalicə pedaqogikasının da rolu böyükdür.

**Nəticə.** Pedaqogikanın başqa elmlərlə əlaqə formaları çox müxtəlifdir və əsasən, aşağıdakıları özündə ehtiva edir:

*– elmi ideyalarla tanışlıq, onlara yiyələnmək və pedaqoji prosesdə yaradıcı şəkildə onlardan faydalanmaq (məsələn, idarəetmənin kibernetik ideyaları);*

*– başqa elmlərin metodlarına müraciət etmək (məsələn, riyazi metodlara);*

*– digər elmlərdən alınan məlumatlardan istifadə etmək (məsələn, müxtəlif yaş dövrlərində məktəblilərin iş qabiliyyətinə dair fiziologiyanın məlumatlarından);*

*– pedaqoji gerçəkliyin mahiyyətinə dair təsəvvürlərə dərindən yiyələnmək üçün digər elmlərin anlayışlarından bəhrələnmək (məsələn, kibernetikadan əxz olunmuş əks əlaqəyə dair anlayışlardan);*

*– ümumi problemlərin pedaqoji baxımdan birgə həlli məqsədi ilə iki, yaxud bir neçə elmin (məsələn, uşaqların sistemli təliminin daha erkən təşkili imkanlarını meydana çıxartmaq məqsədi ilə psixologiya, fiziologiya və pedaqogikanın) imkanlarına arxalanmaq.*

Pedaqogika yalnız digər elmlərin nailiyyətlərindən faydalanmaqla öz işini məhdudlaşdırmır, eyni zamanda başqa elmlərə də material verir və onları zənginləşdirir. Belə ki, şəxsiyyətin formalaşmasında kollektivin tərbiyəvi roluna dair pedaqogikanın irəli sürdüyü nəzəri ideyalardan (V.A.Lay, A.S.Makarenko, N.K.Krupskaya, V.A.Suxomlinski, M.M.Mehdizadə, M.Ə.Muradxanov və b.) fəlsəfə də, psixologiya, sosiologiya və başqa elmlər də bəhrələnir. Digər elmlər şəxsiyyətin təşəkkül tapıb formalaşmasına aid bir

çox faydalı materiallar toplasalar da, onlardan heç biri tərbiyənin qanunauyğunluqlarına hərtərəfli şəkildə aydınlıq gətirməmişdir. Bu, son dərəcə mürəkkəb problemi, yalnız pedaqogika həll edir və praktikada da reallaşdırır.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Pedaqogika (orta ixtisas məktəbləri üçün dərs vəsaiti). Bakı, Mütərcim, 2016, 360 səh.
2. Abbasov A.N., Məmmədzadə R.R., Məmmədli L.A. Pedaqogika: müntəxəbat (ali təhsil müəssisələri üçün dərs vəsaiti). Bakı, Mütərcim, 2021, 608 səh.
3. Məmmədli L.A. Pedaqogika nəzəriyyəsi: müntəxəbat (ali təhsil müəssisələri üçün dərs vəsaiti). Bakı, Mütərcim, 2022.
4. Abbasov A.N., Məmmədli L.A., Əmirəliyeva İ.B. Pedaqogika nəzəriyyəsi və tarixi (ali təhsil müəssisələri üçün dərslik). Bakı, Mütərcim, 2022, 464 səh.

**A.Abbasov**

### Interaction of pedagogy with individual sciences

**Abstract**

Like all sciences, pedagogy interacts with other sciences. Pedagogy is directly related to philosophy, psychology, sociology, logic, physiology, medicine and other sciences. Pedagogy not only benefits from these sciences, but also provides the necessary materials for these sciences. These interactions help children and students develop as individuals and receive education.

**А.Аббасов**

### Связь педагогики с другими науками

**Аннотация**

Как и все науки, педагогика взаимодействует с другими науками. Педагогика непосредственно связана с философией, психологией, социологией, логикой, физиологией, медициной и другими науками. Педагогика не только извлекает пользу из этих наук, но и дает необходимые материалы для этих наук. Эти взаимодействия помогают детям и учащимся развиваться как личности, получать образование.